İyunun 28-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universitetində (UFAZ) "Məzun günü" keçirilib.

Tədbirdə təhsil nazirinin müavini Firudin Qurbanov, ADNSU-nun rektoru professor Mustafa Babanlı, Fransanın Azərbaycandakı səfiri Zakari Qross, UFAZ-ın İcraçı Direktoru Vazeh Əskərov, universitetin professor-müəllim heyəti və məzunlar iştirak ediblər.

Əvvəlcə Dövlət Himni səsləndirilib.

Açılış nitqi ilə çıxış edən ADNSU-nun rektoru Mustafa Babanlı UFAZ-ın bu il 39 magistr və 139 bakalavr məzununun olduğunu bildirib. Rektor qeyd edib ki, 7 UFAZ məzunu bu il dünyanın TOP 50 siyahısında olan universitetlərə tam təqaüdlə qəbul olunub.

Mustafa Babanlı məzunları təbrik edib və onlara uğurlar arzulayıb.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov UFAZ tələbələrinin məzun olduğu ixtisasların ölkə üçün vacibliyini qeyd edib və məzunları ölkəmizin müasir quruculuğunda və azad olunmuş ərazilərin yenidənqurulmasında aktiv iştirak etməyə səsləyib.

Fransanın ölkəmizdəki səfiri Zakari Qross UFAZ-ı seçdiklərinə görə gənclərə təşəkkür edib. Səfir qeyd edib ki, inkişaf edən Azərbaycan qarşısında duran çağırışlardan biri də enerji tranzisiyası – karbon emissiyasının azaldılmasıdır. Səfir UFAZ məzunlarını öz bilikləri ilə bu işə töhfə verməyə çağırıb.

UFAZ-ın İcraçı direktoru Vazeh Əskərov və Baş katibi Elizaveta Bydanova tələbələrin nailiyyətləri barədə tədbir iştirakçılarına məlumat verib. Bildirilib ki, bu il bakalavr pilləsini bitirən 29 nəfər UFAZ məzunu xaricdə təhsillərini magistratura pilləsində davam etdirəcək.

UFAZ məzunları Ləman Cəlilova və İlkin Səfərli isə universitetdə təhsil aldıqları müddət ərzində aldıqları təəssüratları bölüşüblər.

Rəsmi hissədən sonra məzunlara sertifikatlar təqdim olunub. Tədbir konsert proqramı ilə davam etdirilib.